

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 231 (23.142)

*4 dekabr 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirilib və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



## Milli dəyərlərimizin qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır

***Azərbaycan xalqının çoxəsrlik milli dəyərlərinin qorunub yaşadılması, müasir milli müstəvidə inkişaf etdirilməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə almış, bu sahəni hər zaman diqqət mərkəzində saxlamışdır.***

Ötən əsrin 70-80-ci illərində Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunması, tarixi abidələrin bərpası xalqın milli şüurunun formalaşmasında mühüm rol oynayıb. Novruz bayramının Azərbaycanda ümumxalq bayramı kimi keçirilməsi də ulu öndərin o dövr üçün böyük cəsarət tələb edən addımlarından biri idi. Xalqımızın dahi oğlunun həmin dövrdə repressiya qurbanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində gördüyü işlər də milli şüurun güclənməsinə xidmət edirdi. Uzaqgörən siyasətçi Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə dahi şəxsiyyətlərin adlarını əbədiləşdirməklə, onların əsərlərinin təkrar nəşrini təşkil etməklə, abidələrini ucaltmaqla, muzeylərini yaratmaqla xalqın milli yaddaşının yaşadılmasını təmin edib. Böyük sərkərdələrimizin həyat və fəaliyyətlərinin öyrənilməsi xalqın Vətən sevgisini daha da artırıb, hər bir azərbaycanlını müstəqillik, dövlətçilik uğrunda mübarizəyə səfərbər edib.

Azərbaycan tarixinin öyrənilməsi, ümumən, tarixi yaddaşın qorunması, xalqımızın ulu keçmişinə aid yeni elmi əsərlərin, dərsliklərin yazılması da görkəmli dövlət xadimi Heydər Əliyevin diqqət mərkəzində olan məsələlərdən biri idi.

Ümummilli lider Heydər Əliyev milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan ulu öndər deyirdi: ***"Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır... Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".***

Milli ideologiyamızın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycançılıq xətti bir tərəfdən Azərbaycanda vahid milli dövlətçiliyin formalaşmasını, milli yetkinləşmə və bütövləşməni nəzərdə tuturdusa, digər tərəfdən Azərbaycan dilinin dövlət dili olaraq inkişafını və ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini əsas götürürdü. Müstəqillik qazandığımız dövrün əvvəllərində dahi şəxsiyyətin müdrik siyasəti nəticəsində dünya azərbaycanlıları ilə iş dövlət əhəmiyyətli strateji məsələyə çevrilmişdi. Bu mühüm işin konsepsiyası – dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni olması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, Azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdü. Həmvətənlərimizin milli-mənəvi birliyində önəmli hadisə olan görüşlər, ümummilli liderin hər il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar Azərbaycan xalqına müraciəti, bu münasibətlə respublikamızda və xaricdə keçirilən tədbirlər prioritet məsələnin həllində diasporumuzun mütəşəkkil qüvvə kimi formalaşmasında, lobbiçilik fəaliyyətinin istiqamət və perspektivlərinin müəyyənləşdirilməsində həlledici amillərdən olub. Görkəmli dövlət xadimi Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq, Azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: ***"Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".***

Dahi rəhbər milli dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində də çox mühüm addımlar atıb. Məhz görkəmli dövlət xadiminin təşəbbüsü ilə Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapıb. Ulu öndər üçün ana dili Azərbaycançılıq ideologiyasının başlanğıc məqamı, təməl prinsipi, ən böyük milli dəyər idi. Məhz bu baxımdan dahi şəxsiyyət qeyd edirdi ki, xalqa milli dəyərləri aşılamaq üçün, ilk növbədə, ona dilini qaytarmaq və sevdirmək lazımdır.

Sevindirici haldır ki, ümummilli liderimizin milli-mənəvi dəyərlərimizin yaşadılması ilə bağlı müəyyənləşdirdiyi ənənələr müqəddəs bir miras kimi qorunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində Azərbaycan çağdaş tarixinin intibah mərhələsinə qədəm qoyub, müstəqil dövlətimiz iqtisadi inkişaf potensialına görə lider ölkəyə çevrilib. Azərbaycan mədəniyyətinin inkişafına, milli dəyərlərimizin yaşadılmasına dövlətimiz xüsusi qayğı göstərir.

Görkəmli dövlət xadimi Heydər Əliyev milli dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını, inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür və deyirdi ki, bunları qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Ulu öndər deyirdi ki, milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin qorunması və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikasında da milli dəyərlərin qorunması və inkişafı daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2012-ci ilin "Milli dəyərlər ili" elan olunması isə muxtar respublikamızda bu sahədə həyata keçirilən tədbirlərin daha intensiv xarakter almasına geniş imkanlar açıb.

Azərbaycanın siyasi-iqtisadi və sosial inkişafına öz layiqli töhfələrini vermiş muxtar respublikamızda milli dəyərlərə böyük diqqət, qayğı və hörmət göstərilir. 1995-ci ildən bu günə kimi muxtar respublikamızda milli dəyərlərimizin, milli tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin, adət-ənənələrimizin qorunması, zənginləşdirilməsi həmişə diqqət mərkəzində saxlanılıb. Milli dəyərlərə hörmət və ehtiramla yanaşma, bu dəyərlərin elmi baxımdan öyrənilməsi, təbliğ edilməsi istiqamətində aparılan məqsədyönlü siyasət böyük nailiyyətlərin qazanılmasına şərait yaradıb.

Doğma Naxçıvanımız neçə illərdir, böyük tikinti meydançasını xatırladır. Hər il diyarımızın müxtəlif ünvanlarında onlarla yeni obyektlər istifadəyə verilir. Qürurverici haldır ki, yeni inşa olunan, yaxud əsaslı şəkildə yenidən qurulan bütün sosial obyektlərdə, həyata keçirilən digər quruculuq tədbirlərində, ilk növbədə, milli arxitektura üslubuna üstünlük verilir. Daha doğrusu, milli arxitektura üslubuna üstünlük quruculuq proseslərində aparıcı rola malikdir. Bu da milli dəyərlərə sadiqlik, qədim diyarımızın dünənini yaşatmaq, bu gününü gələcəyə daşımaq baxımından mühüm əhəmiyyət kəsb edir.

*Bu gün muxtar respublikamızda milli dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, ulu öndərin müqəddəs irsinə dərin hörmətin təzahürüdür.*


**Qızıltac ŞAHBAZOVA**

***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***


## "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib



Şərur yallıları xalqımızın tarixi, etnoqrafiyası, mərasimləri, mifoloji inancları, adət-ənənələri və ifaçılıq mədəniyyəti ilə sıx bağlı şəkildə inkişaf edib. Gəmiqayada daş üzərində həkk olunan kütləvi rəqs elementləri Naxçıvanda yallı sənətinin çox qədim tarixə malik olduğundan xəbər verir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallı Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı yallı sənətinin də öyrənilməsi, yaşadılması və təbliğində yeni istiqamətlər müəyyənləşdirmişdir.

***"Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə Naxçıvanda yallı sənətinin inkişafı sahəsində kompleks tədbirlər görülmüş, yallılar ilk dəfə nota köçürülmüş, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunmuşdur.

Bu gün muxtar respublikada "Şərur" Xalq Yallı Ansamblı və rayon mədəniyyət şöbələrinin nəzdində 21 yallı qrupu fəaliyyət göstərir. "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılmış, ansamblın ifasından ibarət kompakt disklər hazırlanmışdır. Bu sahədə görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparmış, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirmiş, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunmuşdur.

2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Sözügedən nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim edilmişdir. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi ərazisi olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, eyni zamanda bu ənənələri UNESCO səviyyəsində qorumaqdan ibarətdir.

Bununla da Şərur, ələlxüsus "Köçəri" yallısını öz adına çıxmağa çalışan Ermənistanın "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınmış, növbəti dəfə bu ölkəyə layiqli cavab verilmişdir.

***Gündən-günə çiçəklənən, böyük nailiyyətlərə imza atan qədim Naxçıvanda turizmin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 29 noyabr tarixli “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” Sərəncamı də doğma diyarımızda bu sahənin inkişafına göstərilən diqqət və qayğının növbəti ifadəsidir.***



# Naxçıvanda ilk: gözoxşayan möhtəşəm bir məkanda Kənd Turizm-İstirahət Bölgəsi yaradılır

### *Turizm ehtiyatlarımızın gizli qalmış potensialının üzə çıxarılmasına əsaslı töhfə*

Həmin sərəncama əsasən muxtar respublikanın füsunkar bölgələrindən biri olan Şahbuz rayonunda yaradılan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi kənd turizminin inkişafını daha da sürətləndirib ona yeni çalarlar qatacaqdır. Dövlət sənədində qeyd olunduğu kimi əlverişli təbii-coğrafi şəraiti və havası, zəngin flora və fauna ehtiyatı olan, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Ağbulaq kəndi kənd turizmi üçün böyük potensiala malik olduğuna görə ötən illər ərzində burada mühüm tədbirlər həyata keçirilib. Ağbulaq kəndində fasiləsiz elektrik enerjisi ilə təminat, təbii qaz xəttinin, telefon rabitəsinin və internetin mövcudluğu, yeni yolun çəkilməsi, məktəb binasının, kənd və xidmət mərkəzlərinin, tibb məntəqəsinin tikilib istifadəyə verilməsi kəndin turizm imkanlarını xeyli artırıb, Ağbulaq İstirahət Mərkəzi yaradılıb. Kənddə ekoloji cəhətdən təmiz qida məhsullarının istehsalı üçün də tədbirlər görülüb, meyvəçilik, tərəvəzçilik, arıçılıq və heyvandarlıq inkişaf etdirilib.



Ağbulaqda turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər 2018-ci ildə də davam etdirilib, kənddəki evlər yenidən qurulub, dam örtükləri və fasadlar yenilənib, turistlərin qəbulu üçün lazımi kommunal-məişət şəraiti yaradılıb, təsərrüfat binaları tikilib. Bundan əlavə, kənddə Ağbulaq Xizək Mərkəzinin yaradılmasına başlanılıb.

Bütün bunlar Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasına geniş imkanlar açıb. Məhz buna görə də Ali Məclis Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamında Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutuna daxil edilməsi və tanıdılması ilə bağlı tədbirlər görülməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində təbiətin qorunmasını və yaşıllıq sahələrinin genişləndirilməsinin təmin olunması, sərəncamdan irəli gələn məsələlərin həlli isə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılıb.

Muxtar respublikada ilk dəfə olaraq yaradılan Kənd Turizm-İstirahət Bölgəsi mövcud olan təşkilati turizmin daha da inkişaf etdirilməsinə və bölgədə turizmin bir çox növlərinin gizli qalmış potensialının üzə çıxarılmasına əsaslı töhfələr verəcəkdir.

### *Kənd turizminin inkişafının ünvanına çevrilən füsunkar məkan*

Bu gün Naxçıvan-Şahbuz turizm marşrutunun Şahbuz-Ağbulaq qolu üzrə səyahətə çıxan turistlər bir anda təbiət gözəllikləri ilə insan əlinin möcüzələrinin vəhdətinin, insan rifahına xidmət edən bütöv bir rekreasiya-istirahət kompleksinin cazibəsinə düşürlər.





Bölgənin cazibədar təbii şəraiti, dəniz səviyyəsindən hündürlüyü, həmçinin bitki örtüyü və canlı aləmi ərazinin hər kvadratkilometrində müxtəlif məzmunlu istirahət proqramları təşkil etməyə hərtərəfli şərait yaradır.

Ağbulaq kəndində aparılmış geniş infrastruktur yenilənməsi işləri yerli sakinlərin rahat yaşayışı ilə bərabər, buraya gələn turistlərin də mənalı istirahətinə tam imkan verir. Ona görə ekspertlər burada yay və qış turizminin inkişafı üçün geniş imkanlar olduğunu vurğulayırlar. Bura gələn müxtəlif yaş və məşğuliyyət kateqoriyasından olan turistləri bir-birindən maraqlı istirahət gözləyir.

Ağbulağın cazibədarlığı həm də ondadır ki, bu bölgə rayon mərkəzi olan Şahbuz şəhərindən çox da uzaqda deyil: cəmi 20 dəqiqəlik rahat bir yolun ardından turistlər insanı cəlb edən möhtəşəm təbiət mənzərələri ilə qarşılaşırlar. Ağbulaq kəndinə çatmamış yolboyu qaynayan kənd həyatı, müxtəlif təsərrüfat işləri, dağ yamaclarındakı bar-bərəkət, dişqamaşdıran buz bulaqlar hər bir qonağın diqqətini dərhal cəlb edir. Avqustun qızmarında sübh vaxtı dərələrin süsən-sünbülünü şehə bürüyəndən sonra naz-qəmzə ilə dağın zirvəsinə doğru çəkilən o həzin çən yatdığı sinədə insana gəl-gəl deyir. Qışın oğlan çağında ağ örpəyə bürünmüş uca dağlar, şiş qayalar, qardan yük götürmüş ağaclar, kollar ecazkar mənzərəsi ilə insanı valeh edir. Bu seyr incəruhlu təbiət sevdalılarını, fotovideo həvəskarlarını saatlarca məşğul edir. Belə mənzərə pillə-pillə dolanan Ağbulaq yolunda hərəkət edərkən daha da gözəlləşir və buna görə turistlər istirahət məkanına çatmamış yolüstü bulaq-abidələrin birində fasilə verirlər.

### *Ağbulaq kəndi və ətraf əraziləri ekoloji cəhətdən çox təmizdir*

Əslən Şahbuz rayonundan olan “Naxçıvan” Universitetinin dosenti, Sankt-Peterburq Beynəlxalq Turizm Akademiyasının üzvü Əli Cabbarov ilə söhbətimiz zamanı bildirir ki, muxtar respublikada hətta ən ucqar dağ kəndlərinin təmizliyinə də ciddi diqqət yetirilməsi hər bir turistdə xoş təəssürat yaradır. Kənd yerlərində sənaye tullantılarının olmaması, məişət tullantılarının da mərkəzləşdirilmiş qaydada toplanması həmin yaşayış məntəqələrində arzuedilən nəticəni yaradıb. Bu da müasir kənd turizmi qarşısında qoyulmuş ən mühüm şərtlərdəndir. Bu mənada, Ağbulaq kəndinin və ətraf ərazilərin cazibədarlığına xələl gəlməyib. Buraya gələn turistlər ilk olaraq ərazinin ekoloji cəhətdən çox təmiz olduğunu görürlər. Təmiz olduğu qədər sadə kənd həyatı da buranı seçmiş turistlərin ürəyincədir.

“Naxçıvan” Universitetinin dosenti deyir ki, müasir dövrdə hamı ekoloji təmiz qida məhsullarından danışsa da, onu bir çox turizm məkanlarında tapmaq olmur. Ancaq Ağbulaqda hər addımda ekoloji təmiz qida məhsullarına rast gəlirsən. Kənd sakinlərinin təqdim etdikləri keyfiyyətli yerli məhsullar turistlər üçün əsl tapıntıdır. Təbii yemək həvəskarları varsa, buyursun, ağbulaqlı kəndlinin təsərrüfatında sadə üsulla hazırlanan pendir-lavaşla baldırğan gözəsi boyunca bitmiş yarpızın da bir dadına baxsınlar. Qışda isə təbii balla xamanın qarışığından ibarət səhər yeməyinin, dadlı südün yerini heç nə verə bilməz. Bu da sizə unudulmaz kənd təəssüratı.



Burada dincələn turistlər kəndin füsunkar mənzərəsindən, ekoloji təmiz məhsullarından ləzzət alır, eyni zamanda canlı təbiətlə ünsiyyət qurub müşahidə, herbari toplama, dərman bitkiləri ilə müalicə, dağ yürüşləri, kollektiv gəzintilər və landşaft turizmi ilə də məşğul olurlar.

### *Yayda da, qışda da gözəl mənzərəli Ağbulaq*

Maraqlı bir məqam da ondan ibarətdir ki, dəniz səviyyəsindən iki min metrə qədər hündürlükdə yerləşən Ağbulaqda yayda sərin, qışda isə özünəməxsus gözəl hava şəraiti olur. Belə ki, insan burada özünü hər iki fəsildə də rahat hiss edir. Havanın ideal təmizliyi, oksigen bolluğu, yayda yaşıllığı ilə gözoxşayan, qışda isə ağ örpəyin cəlbedici mənzərəsi insanların əhval-ruhiyyəsinə çox müsbət təsir edir. Əldəymәmiş təbiət guşələri, zümzüməli bulaqlar, mineral su mənbələri, bir-birinə qaynayıb-qovuşmuş meşə və kolluqlar, qarla örtülü dağ yamacları, zirvələr bir-iki həftə deyil, bir neçə aylığa da buraya gəlmiş turistlər üçün əvəzedilməz təəssürat mənbələridir.

Qarşıdan qarlı-şaxtalı qış gəlir. Təbii ki, qış fəslində istirahət etmək istəyənlər də az olmur. Təsadüfi deyil ki, Ümumdünya Turizm Təşkilatının statistik göstəricilərinə görə, hər il dünya turistlərinin, təxminən, 30-35 faizi qış aylarında istirahət etməyə üstünlük verirlər. Bu, bir tərəfdən insanların məşğulluq sahəsi ilə bağlıdırsa, digər tərəfdən, sözsüz ki, onlarda qış fəslinə olan sevgi, qışın romantik görüntülərinə heyranlıqdır. Yüksəkliklərin təmiz havasından yararlanmaq, ailəliklə xoş istirahət etmək, yaşadıqları həyatın streslərindən kənarlaşmaq, istirahət etdikləri bölgənin mədəniyyətini araşdırmaq istəyi qış turizmini son illər daha çox diqqətçəkən turizm növlərindən birinə çevirib. Bu mövsümi turizmdən danışarkən insanın gözləri önündə ilk olaraq yüksək dağlıq ərazilərdə, əsasən, xizək idman növü canlanır. Bu mənada, 2018-ci il iyulun 17-də Ağbulaq kəndində Xizək Mərkəzinin təməlinin atılması və burada tikinti işlərinə start verilməsi bölgədə qış turizminin gələcək inkişafı baxımından çox böyük önəmə sahibdir.

*Göründüyü kimi, Ağbulaqda turizmin hərtərəfli inkişafı üçün hər cür imkanlar mövcuddur. “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması Ağbulaqda da həyata keçirilən tədbirlərin davamlılığını təmin edib, keyfiyyətli və rəqabətədavamlı turizm infrastrukturunun yaradılması üçün geniş imkanlar açıb. Ali Məclis Sədrinin “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” Sərəncamında qarşıya qoyulan vəzifələrin icrası isə bölgədə turizmin inkişafını daha da sürətləndirəcəkdir.*

**Rauf KƏNGƏRLİ**

# Özbəkistanın saytında Naxçıvanla bağlı məqalə yerləşdirilib

*Özbəkistanın nüfuzlu “uchildiz.uz” internet saytında “Naxçıvan Azərbaycanın qədim diyarıdır” sərlövhəli məqalə yerləşdirilib. Azərbaycanın Özbəkistandakı səfirliyi və səfirliyin Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dərc olunan məqalədə Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, ərazisi, əhalisi, sərhədləri barədə məlumat verilmiş, muxtariyyət tarixinə nəzər salınmış, müasir inkişafdan bəhs olunmuşdur.*

Məqalədə vurğulanmışdır ki, Ermənistan tərəfindən blokada şəraitində saxlanmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçmişdir. Muxtar respublikanın əsas makroiqtisadi göstəriciləri – ümumi daxili məhsulun həcmi, adambaşına düşən ümumi daxili məhsul, sənaye məhsulunun istehsalı, kənd təsərrüfatı məhsulları, əsas kapitala investisiya qoyuluşu, xarici ticarət dövriyyəsi, xidmət sektoru və digər sahələr, təqribən, 20 dəfə artmışdır. Mədəniyyət, səhiyyə, təhsil, infrastruktur və digər sahələrdə ciddi nailiyyətlər əldə olunmuşdur. Bu gün Naxçıvan dövlət və hökumət başçılarının görüş yeri, nüfuzlu beynəlxalq konfransların və forumların keçirildiyi diyardır. Yazıda 2018-ci il üçün Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı, həmçinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsinə toxunulmuşdur.

Məqalədə muxtar respublikanın tarixi-memarlıq abidələri, mineral suları, turizm imkanları haqqında məlumat verilmişdir. Qeyd olunmuşdur ki, qədim tarixə malik bu diyardakı 1200-dən çox tarixi abidədən 57-si beynəlxalq, 496-sı isə ümummilli əhəmiyyət kəsb edir. Naxçıvanın əsrarəngiz təbiəti, özünəməxsus iqlim şəraiti, müasir mehmanxanalar, əvəzsiz tarixi abidələrlə yanaşı, 250-dən çox müalicəvi və mineral su mənbəyi bu diyarda müasir tələblərə cavab verən geniş sanatoriya-istirahət zonalarının yaradılmasına imkan verir.

Məqalədə son dövrlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurlardan bəhs edilmiş, 2018-ci ilin may ayında “Naxçıvan” Əlahiddə Ümumqoşun Ordunun Günnüt kəndinin işğaldan azad olunması üçün keçirdiyi hərbi əməliyyat barəsində məlumat verilmişdir. Muxtar respublikanın blokada şəraitində olmasına baxmayaraq, regional layihələrdən kənarda qalmadığını vurğulayan müəllif 2019-cu ildə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsindən sonra Naxçıvanın İran İslam Respublikası və Türkiyə Respublikasının dəmiryol sistemlərinin əlaqələndirilməsində mühüm rol oynayacağını bildirmiş, paytaxt Bakı ilə dəmir yolu nəqliyyat xəttinin qurulacağını qeyd etmişdir.

Məqalədə o da vurğulanmışdır ki, qədim Naxçıvan bu gün intibah dövrünü yaşayır. Dövlət və özəl sektorun möhkəmlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına, rəqabət mühitinin formalaşmasına və yüksək texnologiyalara əsaslanan düşünülmüş və sistemli islahatlar iqtisadi tərəqqiyə münbit zəmin yaradır. Bu istiqamətdə sahibkarlıq fəaliyyətini tənzimləyən inzibati mexanizmlərin liberallaşdırılması, özəlləşmə tempinin artırılması, xarici və daxili sərmayə qoyuluşunun cəlb olunması üçün əlverişli şəraitin yaradılması kimi tədbirlər planlı şəkildə reallaşdırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən bütün sahələri əhatə edən və uğurla həyata keçirilən islahatlar Azərbaycanın digər regionlarında idarəetmənin müasir modeli kimi tətbiq olunur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarının qurur və sədaqətlə davam etdirildiyi Naxçıvan bu gün Şərqin qapısında məğrur dayanıb.

## “Azərbaycanın intellektual birincisi” layihəsinin təqdimatı olub



*Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, “İrəli” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində “Azərbaycanın intellektual birincisi” layihəsinin Naxçıvan Muxtar Respublikası üzrə turnirinin açılış tədbiri keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov bildirib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti ölkəmizdə gənclərin hərtərəfli inkişafını təmin edib. Azərbaycan gəncləri ictimai həyatın bütün sahələrində fəal iştirak edir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə layiqincə təmsil olunurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada da dövlət gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin istedadlarının üzə çıxarılması, intellektual səviyyələrinin yüksəldilməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə kompleks tədbirlər görülür. Gənclərin mənəvi tərbiyəsi və onların ictimai-mədəni həyatda iştirakı daim diqqət mərkəzində saxlanılır. Artıq muxtar respublikada yeni texnologiyalara yiyələnmiş, milli dəyərlərə sahib və çağdaş təfəkkürə malik vətənpərvər gənc nəsil formalaşıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında gənclər siyasətinin daha bir bəhrəsi isə Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsidir. Bu, Naxçıvan Muxtar Respublikası tarixində əlamətdar hadisələrdən biri olaraq muxtar respublikanın və Naxçıvan şəhərinin mövcud imkanlarının ölkə və beynəlxalq miqyasda təbliği baxımından böyük əhəmiyyətə malikdir. Bu il Naxçıvan şəhərində gənclərlə bağlı çoxsaylı ölkə və beynəlxalq səviyyəli tədbirlər keçirilib.

Sahir Rüstəmov “Azərbaycanın intellektual birincisi” layihəsinin gənclər üçün faydalı olacağını bildirib və iştirakçılara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti muxtar respublikada da uğurla davam etdirilir. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edirlər. Bu gün muxtar respublikamızda gənclərin məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda yetişdirilməsi, onların hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği, intellektual səviyyələrinin yüksəldilməsi diqqət mərkəzindədir. Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi, eyni zamanda İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar Naxçıvan şəhərində keçirilən tədbirlərdə də gənclər fəal iştirak edirlər.

“İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov qeyd edib ki, ölkəmizdə gənclərə, onların inkişafına dəstək göstərilir. “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrası ilə əlaqədar həyata keçirilən bu layihə ölkə gənclərinin intellektinin qiymətləndirilməsi və dəyərləndirilməsinə imkan verir. Gənclərin intellektual fəaliyyətə cəlb olunması, onların bu sahədə bilik və bacarıqlarının artırılması, mövcud intellektual bazaların genişləndirilməsi və beynəlxalq intellektual yarışlara rəqabətədavamlı gənclərin hazırlanması layihənin əsas hədəflərindəndir.

Sonra “Azərbaycanın intellektual birincisi” layihəsi haqqında məlumat verilib. Bildirilib ki, gənclərin maarifləndirilməsinə istiqamətlənən və ölkəmizin 11 regionunda 4 intellektual oyun üzrə baş tutan layihə çərçivəsində Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ölkəmizin 70-dən artıq rayonundan 1500 gənc iştirak edib. Layihə 2 mərhələdən ibarət olub. Əvvəlcə hər iqtisadi rayon üzrə komandaların zona çempionatı, sonra isə final yarışları keçirilib. Bu mərhələdə regional turnirlərdə qalib gələn komandalar final mərhələsində öz şəhərlərini (rayonlarını) təmsil etmək hüququ qazanıblar. “Azərbaycanın intellektual birincisi” layihəsinin final mərhələsi ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunub və Bakı şəhərində keçiriləcəkdir.

Sonra layihənin regional turniri Naxçıvan Muxtar Respublikasında Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur şəhər və rayonlarının gənc intellektuallarının iştirakı ilə keçirilib.

Turnirin nəticələrinə görə, “Vətəni tanı” intellektual oyunu üzrə Şahbuz rayon komandası, “Nə? Harada? Nə zaman?” oyunu üzrə Babək rayon komandası, “Axtar tap” və “Xəmsə” intellektual oyunları üzrə Naxçıvan şəhər komandası birinci olub. Həmin komandalara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

Qeyd edək ki, qalib komandalar Bakı şəhərində keçiriləcək “Azərbaycanın intellektual birincisi” layihəsinin final mərhələsində muxtar respublikanı təmsil edəcəklər.

## Naxçıvan Duz Muzeyinin saytı istifadəyə verilib




Dünən Naxçıvan Duz Muzeyinin *www.duzmuzeyi.nakhchivan.az* internet saytının təqdimatı keçirilib. Tədbirdə çıxış edən muzeyin direktoru Camal Babayev deyib ki, Naxçıvan Duz Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı əsasən yaradılıb. Sərəncamda da qeyd olunduğu kimi Naxçıvan şəhərinin tarixi Duzdağın tarixi ilə sıx əlaqədardır. Duz mədənləri həm Naxçıvanın Daş dövrünü, həm də bu şəhərin yaşını müəyyən etmək baxımından çox əhəmiyyətli tədqiqat obyektidir.

Bildirilib ki, muzeyin yaradılmasında əsas məqsəd Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu bütün dünyaya çatdırmaq, aparılan elmi-tədqiqat işlərinin sistemləşdirilməsini və elmi araşdırmalar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələrinin qorunub saxlanmasını və təbliğini təmin etməkdir.

Qeyd olunub ki, Naxçıvan duzunun qədim tarixinə və Naxçıvan Duz Muzeyinə göstərilən dövlət qayğısının daha bir nümunəsi muzeyin saytının yaradılmasıdır.

Sonra sayt haqqında məlumat verilərək bildirilib ki, sayt 7 bölmə və 3 alt bölmədən ibarətdir.

Ana səhifədə “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı yerləşdirilib. Naxçıvan Duz Muzeyi bölməsi “Naxçıvan Duz Muzeyi haqqında”, “Tədbirlər”, “Naxçıvan duzu tarixi mənbələrdə” alt bölmələrindən ibarətdir.

Saytın “Elektron kitabxana” bölməsində müxtəlif illərdə Naxçıvan duzu haqqında nəşr olunan elmi ədəbiyyatlar, jurnal və qəzet materialları yerləşdirilib.

Saytda izləyicilər, eyni zamanda fotoşəkillər və videoçarxlarla da yaxından tanış ola, muzeyə virtual səyahət də edə bilərlər.

**Əli RZAYEV**

## Uilyam Qil: Naxçıvan şəhərindəki inkişaf və buradakı xidmətlərin səviyyəsi məndə xoş təəssürat yaratdı



*Noyabrın 28-30-da Naxçıvan Muxtar Respublikasında səfərdə olan Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil muxtar respublikanın tarixi abidələri, təhsil və mədəniyyət müəssisələri ilə tanış olub.*

Uilyam Qil “Şərq qapısı” qəzetinə müsahibəsində səfər təəssüratları barədə danışaraq qeyd edib ki, doğma Azərbaycan torpağı olan Naxçıvan Muxtar Respublikasına ilk səfərimdən çox məmnunam. O vurğulayıb ki, muxtar respublikada səfərdə olarkən bir sıra yüksək səviyyəli görüşlər keçirdik, görüşlərdə bizim ortaq prioritetlərimiz olan enegetika və iqtisadi məsələlərlə bağlı çox faydalı müzakirələr apardıq.

“Səfərimiz Beynəlxalq Əlillər Günü ərəfəsinə təsadüf edirdi. Biz səfirlik olaraq fəxr edirik ki, əlilliyi olan və olmayan aktyorlardan ibarət “ƏSA” teatrının kollektivi tərəfindən hazırlanan “Adamlar və siçanlar” tamaşasının Naxçıvanda uğurlu nümayişinə köməkliyimizi göstərə bildik”, – deyən Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili qeyd edib ki, Naxçıvanda fiziki məhdudiyyəti olan insanların sosial şəraitinin yaxşılaşdırılması və təhsili istiqamətində görülən işlərlə yaxından tanış oldum. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində və Naxçıvan Uşaq Bərpa Mərkəzində olarkən burada yaradılan yüksək şərait məndə xoş təəssürat oyatdı.

Uilyam Qil deyib: – Səfər çərçivəsində Naxçıvan şəhərindəki tarixi və mədəni abidələrlə də yaxından tanış olduq. Bütün bu yerlər Naxçıvan üçün önəmli, çox dəyərli yerlərdir. Məncə, Naxçıvana səfər etməyə və həmin yerlərlə tanış olmağa dəyər. Şəhərin gözəlliyi, buradakı inkişaf və xidmətlərin səviyyəsi məndə çox xoş təəssüratlar yaratdı. Naxçıvan şəhərindəki yaşıllıqlar, parklar onun gözəlliyinə gözəllik qatır. Mən Naxçıvana yenidən səfər edib, bura ilə daha yaxından tanış olmağı həvəslə və səbirsizliklə gözləyirəm.

Diplomat diqqətə, xoş və səmimi münasibətə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**Tural AĞAYEV**

## Ölkənin fəal gənclərinin muxtar respublikamıza ekskursiyası təşkil edilib

*Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər fondlarının, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın regionlarından fəal gənclərin və Gənclər təşkilatlarının üzvlərindən ibarət 100 gəncin Naxçıvan Muxtar Respublikasına ekskursiyası təşkil olunub.*

Əvvəlcə qonaqlar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Daha sonra onlar “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiya ediblər. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıqdan sonra isə “Naxçıvan” Universitetində “Naxçıvan şəhəri Gənclər Paytaxtıdır” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov və tələbələr çıxış ediblər. Tədbirin sonunda Naxçıvan televiziyasının hazırladığı “Naxçıvan şəhəri – Gənclər Paytaxtı” filmi nümayiş etdirilib.

Həmin gün qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olublar.

Səfərin ikinci günündə Azərbaycanın regionlarından gələn fəal gənclər və Gənclər təşkilatlarının üzvləri türk-islam abidələrindən sayılan Qarabağlar Türbə Kompleksini ziyarət edib, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Biznes Mərkəzi və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi ilə də tanış olublar.

Gənclər üçün “Duzdağ” otelinin restoranında təşkil olunan musiqili konsert proqramı maraqla qarşılanıb.

Ekskursiyanın son günündə gənclər Naxçıvan hərbi şəhərciyində Döyüş Şöhrəti Muzeyini ziyarət ediblər. Ardınca Batabat Astrofizika Rəsədxanası və “Ağbulaq” İstirahət Mərkəzi ilə tanış olan qonaqlar Naxçıvan şəhərindəki Dövlət Bayraq Meydanı və Muzeyinə gəliblər. Gənclər Mərkəzi ilə tanışlıqdan sonra isə ekskursiyanın iştirakçılarına sertifikatlar və hədiyyələr təqdim edilib.

Ekskursiyada iştirak edən fəal gənclərdən bəzilərinin səfər təəssüratlarını oxucularımıza təqdim edirik:

***Səbinə Cabbarova – “ASAN Könüllülər” İctimai Birliyi, Bakı şəhəri:*** “Bu gün Naxçıvan Muxtar Respublikasında da gənclər siyasəti uğurla həyata keçirilir. Öz müşahidələrimə və mətbuatdan öyrəndiklərimə əsasən deyə bilərəm ki, son dövrlərdə Naxçıvan Muxtar Respublikasında Gənclər Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, məktəb binaları, olimpiya-idman kompleksləri tikilib. Bu, gənclərə verilən yüksək qiymətin nümunəsidir. Onların asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının üzə çıxarılması diqqət mərkəzində saxlanılır.



Onu da qeyd edim ki, bizim təşkilatın 17 min 500-dən çox üzvü var və bu üzvlər arasında muxtar respublikadan olan gənclər xüsusi yer alır. Vurğulamaq istərdim ki, təşkilatımız bu gün artıq ölkədə könüllü hərəkatının inkişafında xüsusi rolu olan gənclər təşkilatıdır. Beynəlxalq təşkilat olaraq Naxçıvan Muxtar Respublikasında gənclər ilə müxtəlif sahələr üzrə layihənin həyata keçirilməsi arzusundayıq. Azərbaycanın zəngin tarixə və mədəniyyətə sahib, dilbər guşələrindən olan Naxçıvan, sözün əsl mənasında, Gənclər Paytaxtıdır. Burada gənclərin təhsilə, elmə, incəsənətə, mədəniyyətə marağının olması ulu öndərimizin əsasını qoyduğu dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir”.

***Əli Eminli – “Sağlam Düşüncə” Gənclər Təşkilatı, Sumqayıt şəhəri:*** “Naxçıvana gəldiyim ilk gündə diqqətimi şəhərin səliqəli olması, burada daha çox tarixi-memarlıq abidələri, onların müasir üslubla təmir olunması cəlb etdi. Memarlıq və İnşaat İnstitutunun tələbəsi olduğum üçün memarlıqla bağlı tarixi abidələri gəzərkən diqqətimi cəlb edənlərin qeydiyyatını apardım. Hər biri möhtəşəmdir. Xüsusilə bəzi türbələrin yenidən təmir olunması və qorunub saxlanılması Naxçıvanda tarixi keçmişimizə nə qədər önəm verildiyini göstərir. Bununla yanaşı, muzeylərlə də tanış olduq, Şahbuz və Culfa rayonlarını gəzmək imkanı əldə etdik. Təəccübləndiyim digər məqam isə kənd yollarının belə, abad olması, insanların kəndlərdə firavan həyat sürməsi və bizi gülərüzlə qarşılaması idi. Bu layihənin təşkilatçılarına və bizi Naxçıvanla tanış edən hər kəsə minnətdarlığımızı bildiririk”.




***Şamil Moylayev – “Gələcəyə Körpü” Gənclər İctimai Birliyi, Gəncə şəhəri:*** “Muxtar respublikanın ekoloji cəhətdən təmiz olması, yolların səliqəli şəkildə salınması, insanların qaydalara riayət etməsi, bir sözlə, hər şey mükəmməldir.



Tarixi abidələri, muzeyləri gəzmək imkanımız oldu. Xüsusilə hərbi şəhərcikdəki muzey diqqətimi daha çox cəlb etdi. Məncə, belə muzeylərin çoxluq təşkil etməsi sevindirici haldır. Bu, eyni zamanda ordumuzun hansı gücə malik olduğunun göstəricisidir. Naxçıvan gəncləri ilə görüşlərimizdə daha çox aid olduğumuz sahələr müzakirə edildi. İnanıram ki, bu əlaqələr genişlənəcək və biz yenidən Naxçıvana gələcəyik. Təşkilatçıların hər birinə minnətdarıq”.

**Ceyhun MƏMMƏDOV**

## Görkəmli şair Mikayıl Müşfiqin 110 illiyinə həsr edilmiş tədbir keçirilib

*Dekabrın 2-də Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsinin qarşısında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və "Cabir Novruz" Mədəniyyət Fondunun birgə təşkilatçılığı ilə görkəmli şair Mikayıl Müşfiqin 110 illik yubileyi ilə bağlı tədbir keçirilib.*





Qonaqlar əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucaldılan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev açaraq "Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 may tarixli Sərəncamının əhəmiyyətindən danışıb, ölkəmizdə ədəbiyyata, şair və yazıçıların yaradıcılığına göstərilən dövlət qayğısını diqqətə çatdırıb.

Bildirilib ki, həyat və gözəllik aşiqi olan Mikayıl Müşfiq ədəbiyyatda, həyatda bir şimşək ömrü yaşadı. Ancaq qısa zaman kəsiyində gözəl şeirləri, poemaları, mənzum nağılları, tərcümələri, bir sözlə, maraqlı və orijinal əsərləri ilə ədəbiyyatımızda parlaq, dərin iz qoydu. Onun sevgi, gözəllik, sədaqət, sosial və mədəni məsələlərə həsr etdiyi şeirləri bu gün də sadəliyi, bədiiliyi, axıcılığı, gözəlliyi ilə seçilir və böyük oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunur. Dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələri ilə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirən Mikayıl Müşfiq əsərlərinin başlıca keyfiyyətləri forma yeniliyi, məzmun genişliyi, romantik əhval-ruhiyyə və yüksək həyat eşqidir. Bu tədbirin ümummilli liderimiz Heydər Əliyev tərəfindən repressiya qurbanlarına əbədi ehtiram nümunəsi kimi ucaldılan Hüseyn Cavid məqbərəsi önündə keçirilməsi milli-mənəvi irsimizə, ədəbiyyatımıza qayğının davamı kimi böyük məna daşıyır.

Qeyd edilib ki, bu gün anadan olmasının 110 illiyi Naxçıvan torpağında qeyd olunan nakam taleli şairimiz Mikayıl Müşfiq ömrünün və yaradıcılığının çiçəklənən dövründə sovet imperiyasının repressiya qurbanlarından birinə çevrilsə də, əbədiyyət qazanan xoşbəxt taleli şairdir. Ölümündən 80 il keçməsinə baxmayaraq, xalqımız bu gün də Mikayıl Müşfiqi tükənməz bir məhəbbətlə sevir və sevəcək.

"Cabir Novruz" Mədəniyyət Fondunun nümayəndəsi, Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru Qafar Əsgərzadə çıxış edərək vurğulayıb ki, sağlığında şairin on kitabı işıq üzü görüb. "Çağlayan" adlı sonuncu, on birinci kitabı şair bəraət aldıqdan sonra çap edilib. Mikayıl Müşfiqin ömür-gün yoldaşı Dilbər Axundzadənin 1968-ci ildə "Müşfiqli günlərim" adlı xatirələr kitabı nəşr olunub, kitabın son genişləndirilmiş nəşri 2005-ci ildə işıq üzü görüb.

Vurğulanıb ki, nakam şair Azərbaycan xalqı üçün əsl sənət xəzinəsini yadigar qoyub. Dərin emosionallıq, ahəngdarlıq, yığcamlıq şifahi xalq və yazılı klassik ədəbiyyatımızdan bəhrələnən Mikayıl Müşfiq poeziyasının əsas bədii keyfiyyətləridir. O, lirik-epik lövhələrin, peyzajların ən mükəmməl nümunələrini yaradıb. Nə qədər ki dünyada sevgi, məhəbbət var Müşfiq poeziyası da yaşayacaq.

Qeyd olunub ki, Mikayıl Müşfiqin şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir.

Qafar Əsgərzadə "Cabir Novruz" Mədəniyyət Fondu adından tədbirin doğma Naxçıvanda keçirilməsinə şərait yaratdığına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

Daha sonra filologiya elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimli "Mikayıl Müşfiq poeziyası ədəbi-tarixi yaddaş işığında", filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Gənc şairin böyük sənətkarlığı" mövzularında çıxış ediblər. "Cabir Novruz" Mədəniyyət Fondunun nümayəndəsi, Əməkdar müəllim Nəcməddin Mürvətov və Mikayıl Müşfiqin yaxın qohumu Vahab İsmayılzadə çıxış edərək şairin şeirlərindən nümunələr səsləndiriblər.

Sonda kompozisiya göstərilib. Kompozisiyada Əhməd Cavad obrazını Azərbaycan Respublikasının Xalq artisti Nürəddin Mehdixanlı, Müşfiq obrazını gənc aktyor Toğrul Rza, Hüseyn Cavid obrazını Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru, Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoy ifa ediblər. Sonra Azərbaycan Respublikasının Əməkdar artisti Rəşad İlyasovun ifasında musiqi nömrələri dinlənilib.

Tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyini də ziyarət ediblər.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və rayon mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərin iştirakı ilə tədbirlər keçirilib.*

## Məhdud fiziki imkanlı şəxslərə sovqat verilib

Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Nicat Babayev çıxış edərək vurğulayıb ki, muxtar respublikada məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bütün sahələrdə müşahidə olunan dinamik inkişaf bu kateqoriyadan olan şəxslərin də sosial müdafiəsinin gücləndirilməsinə imkan yaradıb. Məhdud fiziki imkanlı insanlara tibbi və sosial reabilitasiya xidmətləri göstərilir, müharibə əlilləri minik avtomobilləri ilə təmin olunur, sağlamlıq imkanları məhdud olan insanların mənzil-məişət şəraitləri yaxşılaşdırılır, müvafiq kateqoriyadan olan şəxslərə təqaüd və sosial müavinətlər ödənilir, həmçinin onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Qeyd edək ki, həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Beynəlxalq Əlillər Günü münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və rayon İcra hakimiyyətlərinin nümayəndələri çıxış edərək məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət musiqi qrupu Kəngərli rayonunda keçirilən tədbirdə iştirakçılar qarşısında konsert proqramı ilə çıxış edib.

Tədbirlərdə, ümumilikdə, məhdud fiziki imkanlı 1000 şəxsə sovqat təqdim olunub. Görüşlərdə iştirak edə bilməyən məhdud fiziki imkanlı şəxslərə evlərində baş çəkilib, sovqat verilib.

Məhdud fiziki imkanlı şəxslər onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## İdmançılarımızdan uğurlu nəticə

*Bakı şəhərində Azərbaycan Respublikası Daxili İşlər orqanlarının əməkdaşları arasında sərbəst güləş üzrə yarış keçirilib.*



Yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da mübarizə aparıblar. Şəxsi və komanda yarışında idmançılarımız uğurlu nəticə əldə ediblər. Belə ki, çempionatda ən uğurlu nəticəni 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Rəşid Sadiqov qazanıb. O, bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıb. Rəşad Həsənov (66 kiloqram) isə finala kimi yüksəlsə də, həlledici qarşılaşmada məğlub olaraq yarışı ikinci pillədə başa vurub. Mahir Babayev (70 kiloqram), Cavanşir Yaqubov və Sadiq Qasımov (97 kiloqram) isə yarışın bürünc medalını qazanıblar.

Ölkənin bir çox komandasının mübarizə apardığı yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası ümumi hesabda yarışın ikincisi olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və medal, komandaya isə kubok təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Mütəxəssis sözü*

## Taxıl zəmilərini ziyanvericilərdən qoruyaq



*Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda ərzaq təhlükəsizliyi probleminin həllində xüsusi əhəmiyyət kəsb edən taxıl istehsalı və bu istehsalın həcminin ildən-ilə daha da artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, bu, ölkəmizdə reallaşdırılan iqtisadi siyasətin mühüm vəzifələrindən biri sayılır.*

Məhsul istehsalının ilbəil artırılmasını təmin etmək üçün taxıl istehsalı ilə məşğul olan torpaq mülkiyyətçiləri taxılın becərilmə aqrotexnikasına ciddi yanaşmalıdırlar. Taxıl bitkisinin inkişafına xəstəlik, zərərverici və alaq otlarının ciddi təsiri vardır. Bunlardan başqa, taxıl zəmilərinə gəmiricilər də ciddi ziyan vururlar. Onlar fəsillərdən asılı olaraq taxılın həm kök sistemi, yaşıl gövdə və yarpaqları, həm də dənləri ilə qidalanırlar. Gəmiricilərin vurduğu ziyan toxumların cücərmə vaxtından başlayıb dənin yetişmə dövrünədək davam edir və ən çox ziyan yaz aylarında müşahidə olunur.

Gəmiricilərə qarşı mübarizə tədbirlərində aqrotexniki, bioloji və kimyəvi mübarizə üsullarından geniş istifadə edilir. Aqrotexniki mübarizə tədbirlərinə əkin sahələrinin kənarlarında bitən alaq otlarının sistematik şəkildə təmizlənib məhv edilməsi, məhsulun vaxtında yığılması və sahənin bitki qalıqlarından təmizlənməsi, dərin dondurma şumunun aparılması kimi tədbirlər daxildir.

Bioloji mübarizə tədbirləri siçan yatalağı bakteriyalarından hazırlanmış kulturalardan istifadə etməklə xəmir, dən yarması, kartof püresi və sairlə aldadıcı yem hazırlanaraq ziyanvericilərin yuvalarına qoymaqla aparılır.

Kimyəvi mübarizə tədbirlərini, əsasən, payız və yaz fəslində aparmaq məsləhətdir. Payızda taxıl sahələrinin hər hektarında 50-dən artıq işlək yuva olduqda kimyəvi mübarizənin aparılması vacib şərtdir. Bu tədbir də rodentisidlərdən istifadə etməklə aldadıcı yem hazırlamaqla həyata keçirilir. Bunun üçün təmizlənmiş buğda bir-iki gün əvvəl suda isladılır və hər 100 kiloqram buğdaya 3 litr maye yağ əlavə etməklə qarışdırılır, onun üzərinə 2,5 kiloqram sink-fosfid əlavə edilib polietilen örtüyün üzərində yenidən qarışdırılır. Hazırlanmış aldadıcı yem hər yuvaya 8-12 ədəd olmaqla tökülür və yuvanın ağzı bağlanır. Aldadıcı yem hər hektara 2-4 kiloqram məsarif norması ilə işlədilir.

Preparatlar çox zəhərli olduğuna görə onlarla ehtiyatla davranmaq lazımdır. Belə ki, xüsusi geyimlərdən, əlcək, gözlük və respiratorlardan istifadə etməklə təhlükəsizlik qaydaları gözlənilməlidir. Torpaq mülkiyyətçiləri ziyanvericilərlə mübarizə apararaq taxıl zəmilərindən yüksək məhsul əldə edə bilərlər.

**Yaşar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

### Naxçıvan Muxtar Respublikası üzrə 3 dekabr 2018-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3198,0 | 2987,0 | 211,0 |
| 2. | Babək rayonu | 8852,0 | 6680,0 | 2172,0 |
| 3. | Ordubad rayonu | 1412,0 | 740,0 | 672,0 |
| 4. | Culfa rayonu | 5902,0 | 4997,0 | 905,0 |
| 5. | Kəngərli rayonu | 4484,0 | 2610,0 | 1874,0 |
| 6. | Şahbuz rayonu | 1151,0 | 1130,0 | 21,0 |
| 7. | Sədərək rayonu | 1809,0 | 1378,0 | 431,0 |
| 8. | Naxçıvan şəhəri | 855,5 | 710,0 | 145,5 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **27663,5** | **21232,0** | **6431,5** |

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 872